# Seyyidul-istiğfar

Şəddəd bin Əvsdən (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Seyyidul-istiğfar (istiğfarın seyyidi) "Allahummə əntə Rabbi ləə iləhə illə əntə, xaləqtəni və ənə abdukə və ənə alə əhdikə və vədikə məstətatu, əuzu bikə min şərri mə sanətu, əbuu ləkə binimətikə aləyyə və əbuu ləkə bizənbi, fəğfir li, fəinnəhu lə yəğfiruz-zunubə illə əntə" (Allahım, Sən mənim Rəbbimsən, Səndən başqa haqq məbud yoxdur, məni Sən yaratdın, mən də Sənin qulunam, bacardığım qədər Sənin əhdinə və vədinə sadiqəm. Etdiklərimin şərrindən sənə sığınıram. Sənin üzərimə olan nemətini və günahlarımı etiraf edirəm. Məni bağışla, çünki Səndən başqa heç kim günahları bağışlamaz”) - söyləməyindir. Kim bunu əminliklə gündüz desə və o gün axşamdan əvvəl ölsə, Cənnət əhlindən olar, kim bunu gecə əminliklə desə və səhərə çıxmamış ölsə o, Cənnət əhlindən olar".

[Səhih] [Əl-Buxari rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, istiğfarın (bağışlanmaq istəməyin) bir neçə sözləri vardır və onların ən üstünü və ən böyüyü qulun belə deməsidir: “Allahım, Sən mənim Rəbbimsən, Səndən başqa haqq məbud yoxdur, məni Sən yaratdın, mən də Sənin qulunam, bacardığım qədər Sənin əhdinə və vədinə sadiqəm. Etdiklərimin şərrindən sənə sığınıram. Sənin üzərimə olan nemətini və günahlarımı etiraf edirəm. Elə isə məni bağışla, çünki Səndən başqa heç kim günahları bağışlamaz”. Qul ilk olaraq Allahın tövhidini (təkliyini) və Uca Allahın Onun yaradıcısı olduğunu və Allahın heç bir şəriki olmadığını etiraf edir və gücü çatdığı qədər Uca Allaha iman və itaətlə bağlı verdiyi əhdinə bağlı qalacağını bildirir. Çünki qul nə qədər ibadət etsə də, Allahın ona əmr etdiyi hər bir şeyi yerinə yetirməyə və nemətlərə lazımi qədər şükür etməyə gücü çatmır. Və qul Allaha üz tutub Ona sığınmalıdır. Çünki qulun etdiyi pislikdən yalnız Allaha sığınılar. Və O, könüllü olaraq Allahın ona olan nemətini təsdiqləyir və etiraf edir. Öz nəfsinə günahını və Allaha etdiyi itaətsizliyini iqrar və etiraf edir. Allaha bu şəkildə yaxınlaşdıqdan sonra Rəbbinə dua edir ki, Allah əfvi, lütfü və rəhməti ilə onun günahlarını örtərək və onu günahlardan qoruyaraq, onu bağışlasın. Çünki Allahdan başqa heç kəs günahları bağışlamaz. Sonra o, sallallahu aleyhi və səlləm xəbər vermişdir ki, bu, səhər və axşam zikrlərindən biridir. Və hər kim günün əvvəlində, günəşin doğuşu ilə günorta vaxtı günəşin zəvalı (zeniti keçməsi) arasında, bunu yəqinliklə, mənalarını düşünərək və iman gətirərək desə və sonra ölsə, Cənnətə girər. Və hər kim bunu gecə-günəşin batmağından sonra səhərə kimi desə və səhər açılmamış ölsə, Cənnətə daxil olar.

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee